# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 222** **Bakı şəhəri, 6 iyun 2022-ci il**

***"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti üçün ərzaq payı normalarının və xidməti heyvanlarının yemləmə normalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 yanvar tarixli 2 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti üçün ərzaq payı normalarının və xidməti heyvanlarının yemləmə normalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 yanvar tarixli 2 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 566; 2014, № 2, maddə 217, № 5, maddə 592; 2015, № 5, maddə 657; 2016, № 2 (II kitab), maddə 369, № 11, maddə 1942; 2017, № 4, maddə 620; 2020, № 8, maddə 1119) aşağıdakı dəyişiklik edilsin:

1. 7-ci hissəyə "dəstələrinin" sözündən sonra ", Azərbaycan Ordusunun əməliyyat (komando) briqadalarının" sözləri əlavə edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 7 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı dəstələrinin ərzaq payı Normaları" üzrə:

2.1. adına "dəstələrinin" sözündən sonra ", Azərbaycan Ordusunun əməliyyat (komando) briqadalarının" sözləri əlavə edilsin;

2.2. "Qeydlər" hissəsinin 1.1-ci bəndinə "qüvvələrinin," sözündən sonra "Azərbaycan Ordusunun əməliyyat (komando) briqadalarının," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2022.- 8 iyun.- S.5.